*İşğaldan azad edilmiş torpaqlarımızda, Prezident İlham Əliyevin dediyi kimi, yeni dövr – bərpa, quruculuq dövrü başlayır: "Gələcəkdə bizi böyük işlər gözləyir, ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü, inkişaf dövrü, torpaqlarımızın bərpası günləri bizi gözləyir. Baxmayaraq ki, düşmən işğal etdiyi və artıq azad edilmiş torpaqlarda hər şeyi dağıdıb, biz bütün şəhərlərimizi, kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış ərazilərdə infrastrukturun, mədəni obyektlərin, təhsil ocaqlarının bərpası başlıca vəzifələrdən biridir".*



# İşğaldan azad edilmiş ərazilərdə təhsil müəssisələri yenidən qurulacaq

Məlumat üçün bildirək ki, işğaldan azad edilmiş ərazilərdə bir təhsil ocağı belə salamat deyil. İşğaldan öncə Şuşada, Ağdamda, Kəlbəcərdə, Cəbrayılda, Qubadlıda və Laçında, demək olar ki, hər kənddə məktəb var idi. Bu gün həmin məktəblərdən əsər-əlamət belə yoxdur.

Rəsmi məlumata görə, erməni vandalları tərəfindən 1107 təhsil müəssisəsi və 855 uşaq bağçası tamamilə məhv edilib. Onlar bununla Azərbaycan təhsilinə zərbə vurmaq istəyiblər. Lakin dövlətimiz məcburi köçkünlər üçün salınan qəsəbələrdə müasir təhsil ocaqları da inşa etdi. Ötən dövr ərzində məcburi köçkün uşaqları doğma torpaqlarından kənarda olsalar da, təhsillərini yüksək səviyyədə davam etdirdilər. Köçkün məktəblərini bitirən gənclərimiz respublikamızın və xarici ölkələrin müxtəlif ali məktəblərində seçdikləri ixtisaslara uyğun təhsil alaraq, ölkəmizin inkişafına töhfə verirlər.

Azərbaycan Ordusunun 2016-cı ilin Aprel zəfərindən sonra Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi də qısa vaxt ərzində yenidən qurulmuş, orada bütün infrastruktura malik yeni qəsəbə salınmışdır. Burada məktəb, uşaq bağçası inşa edilmiş və bütün müasir avadanlıqlarla təmin olunmuşdur. Cocuq Mərcanlıda olduğu kimi, işğaldan azad edilmiş bütün kənd, qəsəbə və şəhərlərimizdə təhsil müəssisələrinin bərpa edilərək istifadəyə verilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev dəfələrlə bildirmişdir ki, azad edilmiş yaşayış məntəqələrində yeni tipli müasir təhsil müəssisələri inşa ediləcək. Tezliklə işğaldan azad edilmiş şəhər və kəndlərimizdə genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçiriləcək. 30 ilə yaxın respublikamızın digər ərazilərində fəaliyyət göstərən qaçqın məktəbləri də fəaliyyətlərini yenidən doğma yurdlarında davam etdirəcək.

Bizim işğaldan azad edilmiş ərazilərimizdə çox sayda qabaqcıl məktəblərimiz olub. Məsələn, yüz ildən çox yaşı olan Cəbrayıl rayonunun Soltanlı kənd orta məktəbi də darmadağın edilib. O kəndin tarixdə qalan xeyli nümayəndəsi elə həmin məktəbdə təhsil alıb. 1912-ci ildə rus-tatar məktəbi kimi fəaliyyətə başlayan bu təhsil ocağı Birinci Dünya müharibəsi başlanana qədər fəaliyyət göstərib. Müharibədən sonra yenidən dərslər bərpa edilib. O məktəbin təkcə Soltanlıdan olan məzunları sırasından 1993-cü ilə qədər 40-dan çox alim yetişib. Xələfli, Veysəlli, Sarıcallı kəndlərinin uşaqları elə o məktəbin yataqxanasında qalırdılar. Amma indi o təhsil ocağının izi-tozu da yoxdur.

Zəngəzurda ilk dünyəvi məktəb (rus-tatar məktəbi) 1882-ci ildə Qubadlıda yaradılıb. 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə həmin məktəbin əsasında fəaliyyət göstərən Qara İlyasov adına Qubadlı şəhər 1 saylı tam orta məktəbin 125 illik yubileyi Sumqayıt şəhərində qeyd olunmuşdur.

Qubadlı rayonu işğal edilməzdən əvvəl rayonda 61 ümumtəhsil məktəbi, o cümlədən 33 tam orta, 16 ümumi orta (əsas), 12 ibtidai məktəb var idi. Bunlardan əlavə, 1 texniki-peşə məktəbi, əyani-qiyabi məktəb və 5 məktəbdənkənar müəssisə də fəaliyyət göstərirdi. Bu gün onlardan əsər-əlamət qalmayıb.

Kəlbəcər rayonunda da işğaldan əvvəl mükəmməl təhsil sistemi formalaşmışdı. Rayonda 96 ümumtəhsil məktəbi, o cümlədən 46 tam orta, 42 ümumi orta, 8 ibtidai məktəb var idi. Bunlardan əlavə, 1 texniki-peşə məktəbı, 8 məktəbdənkənar və 4 məktəbəqədər təhsil müəssisəsi də fəaliyyət göstərirdi. Bu məktəblər də tezliklə bərpa ediləcək.

Vətən müharibəsində cəbhə xəttindən xeyli uzaqda yerləşən məktəblərin də raket atəşinə tutulması tədrisin davam etdirilməsini mümkünsüz etdi. 54 məktəbimiz müharibə dövründə müxtəlif dərəcədə xəsarət alıb. Onların bərpa edilməsi ilə bağlı dövlət tərəfindən lazımi işlər aparılmış, əksəriyyəti istifadəyə verilmişdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 1 oktyabr.- S.10.